**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**068/474

**Bakı şəhəri** "24" noyabr **2025-ci il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) rəsmi məlumatlarına əsasən, son dövrlərdə dünyanın bir sıra ölkələrində yüksək patogen quş qripi, nyukasl və digər xüsusi təhlükəli quş xəstəliklərinə görə epizootik stabillik pozulmuş və bu xəstəliklərin yayılma riski yaranmışdır. ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlığı Məcəlləsi"nə görə quş xəstəliklərinin yayılmasında təbii-coğrafi amillərlə yanaşı, riskli məhsulların və həssas quşların ticarəti zamanı ölkələrarası yükdaşımalar da əhəmiyyətli dərəcədə yüksək rol oynayır. Bu baxımdan, xüsusi təyinatlı nəzarət tədbirlərinin tətbiqinə zərurət yaranmışdır.

Azərbaycan Respublikası 2024-cü ildə ÜHST tərəfindən yüksək patogen quş qripindən azad ölkə kimi tanınmışdır. Ölkənin sözügedən xəstəliyə görə bioloji təhlükəsizliyinin qorunması məqsədilə mütəmadi olaraq köçəri quşların miqrasiya marşrutları nəzərə alınmaqla təbiət ərazilərində, sənaye əsaslı və ailə quşçuluq təsərrüfatında monitorinqlər aparılaraq epizootik vəziyyət nəzarətdə saxlanılır. Göstərilənlərlə yanaşı, baytarlıq nəzarətində olan yüklərin (məhsullar, heyvanlar, quşlar və digərləri) də idxalının tənzimlənməsi vacibdir.

Qeyd edilənlər nəzərə alınaraq, respublika ərazisinin yoluxucu xəstəliklərdən qorunmasını təmin etmək məqsədilə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Xüsusi təhlükəli quş xəstəlikləri ilə bağlı ÜHST-nin "Ümumdünya Heyvan Sağlamlığı İnformasiya Sistemi"ndən (WAHIS) əldə olunmuş məlumatlar, eləcə də ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlığı Məcəlləsi" üzrə müvafiq tələbləri nəzərə alınsın.

**2.** 2026-cı il 1 yanvar tarixindən etibarən diri ev quşlarının, o cümlədən 1 (bir) günlük cücələrin (zoomağazalara, heyvanat parklarına və nümayiş məqsədilə gətirilən dekorativ quşlar istisna olmaqla) Azərbaycan Respublikasına idxalına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixədək, ixracatçı ölkələrin səlahiyyətli orqanlarının nəzarəti altında Azərbaycan Respublikasına daşınmaq üçün yüklənmiş diri ev quşlarının, həmçinin 1 (bir) günlük cücələrin idxalı ciddi karantin tədbirlərinin tətbiqi və laboratoriya müayinələrinin aparılması şərti ilə həyata keçirilsin.

**4.** Bu qərarın 2-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**5.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
24.11.2025

**6.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**7.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan yükün ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
24.11.2025